# AMEA-da elektron tibbin problemlərinə həsr olunmuş elmi-praktik konfrans

Mayın 24-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti, Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və AMEA İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə "Elektron tibbin multidissiplinar problemləri" mövzusunda I Respublika elmi-praktik konfransı keçirildi. Konfrans elektron səhiyyənin formalaşdırılmasına elmi dəstək verilməsi və prioritetlərin müəyyənləşdirilməsi, bu sahədə aparılan elmi tədqiqatların əlaqələndirilməsi, eləcə də xarici ölkələrin müvafiq elmi mərkəzləri ilə davamlı əməkdaşlıq əlaqələrinin təşkili məqsədlərinə xidmət edirdi.

AMEA-nın əsas binasının Dairəvi zalında keçirilən tədbirdə ölkənin müvafiq dövlət qurumlarının rəhbərləri, ali təhsil müəssisələri və AMEA-nın elmi-tədqiqat institutlarının informasiya texnologiyaları və tibb sahələri üzrə aparıcı alim və mütəxəssisləri, KİV nümayəndələri iştirak edirdilər.

Konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə tədbiri Azərbaycan səhiyyəsi və elmi, bütövlükdə ölkə ictimaiyyəti üçün mühüm hadisə kimi dəyərləndirdi. E-tibbin formalaşması problemlərinin müxtəlif aspektləri ilə məşğul olan alim və mütəxəssislərin bir araya gəlməsi və gələcək əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi baxımından konfransın böyük əhəmiyyətə malik olduğunu bildirdi.

Akademik səhiyyə sisteminin müasir tələblərə uyğunlaşdırılması, yüksək keyfiyyətli tibbi xidmətlərin göstərilməsi üçün elmdə əldə olunmuş nailiyyətlərə əsaslanmağını, innovativ texnologiyaların geniş tətbiqinin vacib şərtlərdən olduğunu dedi. İKT-nin müxtəlif sferalarda, o cümlədən tibdə tətbiqinin Prezident İlham Əliyev tərəfindən prioritet sahə kimi müəyyənləşdirildiyini qeyd edən A.Əlizadənin sözlərinə görə, dövlət başçısının rəhbərliyi və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın humanist təşəbbüsləri sayəsində ölkədə səhiyyə sisteminin inkişafı, əhalinin sağlamlığının qorunması və tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm nailiyyətlər əldə olunub.



A.Əlizadə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın əsas istiqamətlərindən birinin də məhz elektron səhiyyə sisteminin formalaşdırılması, İKT-nin səhiyyədə tətbiqinin genişləndirilməsi olduğunu qeyd etdi.

AMEA-nın prezidenti akademiyada bu istiqamətdə aparılan elmi tədqiqatlardan söz açaraq bildirdi ki, prioritet elmi istiqamətlər sırasında biologiya və tibb sahəsində dünyanın yeni çağırışlarına uyğun araşdırmaların aparılması əsas hədəflərdəndir: buna misal olaraq, kök hüceyrə, molekulyar biologiya və təbabət, tibdə kompüter texnologiyaları, yeni dərman texnologiyaları və s. kimi müasir elmi istiqamətləri göstərmək olar. Ölkədə biotibbi informatika, elektron tibb problemləri ilə bağlı ayrı-ayrı elmi mərkəzlərdə tədqiqatlar aparıldığını, müxtəlif klinikalarda elektron tibbin formalaşdırılması istiqamətində praktiki işlərin həyata keçirildiyini və bir sıra nailiyyətlərin əldə olunduğunu bildirən alim eyni zamanda, bu istiqamətdəki tədqiqatlarla bağlı bir sıra təşkilati və metodoloji problemlərin mövcud olduğunu da söylədi.

Səhiyyə nazirinin müavini Elsevər Ağayev ölkədə e-tibbin formalaşması ilə bağlı həyata keçirilən tədbirlər və əldə olunan uğurlardan danışdı, e-tibbin inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələr və onların həlli istiqamətində görüləcək işləri diqqətə çatdırdı.

Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov ölkədə səhiyyə və tibb elminin inkişafına göstərilən qayğıdan söz açdı. Son zamanlar səhiyyə sistemində uğurlu islahatlar aparıldığını qeyd edən akademik Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyevanın diqqəti və dəstəyi sayəsində bütün regionlarda yeni səhiyyə obyektlərinin tikilib istifadəyə verildiyini, tibb elminin ən son yenilikləri, texnoloji innovasiyalar, müasir müalicə üsullarının klinika və sağlamlıq mərkəzlərində uğurla tətbiq edildiyini, həkimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün səmərəli işlərin görüldüyünü söylədi. Ə.Əmiraslanov herontologiya, kök hüceyrələri sahəsində aparılan tədqiqatların əhəmiyyətini qeyd etdi, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun yaradılmasının dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılmasında mühüm addımlardan olduğunu bildirdi.

Biotibb sahəsində elmi kadrların hazırlanmasının ən böyük problemlərdən olduğunu deyən Ə.Əmiraslanov informatika və riyaziyyat üzrə gənc mütəxəssislərin biotibb sahəsində tədqiqatlara cəlb olunmasını, xarici təhsildə seçim edərkən bu sahələrə üstünlük verilməsini problemin həlli istiqamətində vacib amillərdən saydı.

Tədbirdə AMEA-nın akademik katibi, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev "Elektron tibbin formalaşmasının aktual elmi-nəzəri problemləri və həlli perspektivləri" mövzusunda məruzə etdi. Akademik e-tibbin e-hökumətin tərkib hissəsi olduğunu qeyd edərək bu sahədə mövcud problemlərin multidissiplinar xarakter daşıdığını nəzərə çatdırdı. E-tibbin texnoloji, iqtisadi, demoqrafik, psixoloji, hüquqi, etik və s. aspektlərinə xüsusi diqqət yetirilməsinin vacibliyini qeyd etdi.

İnstitut direktoru rəhbərlik etdiyi elmi-tədqiqat müəssisəsində e-tibb sahəsində həyata keçirilən tədqiqatlardan söz açaraq bildirdi ki, e-tibbin formalaşması istiqamətində dünyanın aparıcı elmi mərkəzlərində aparılan araşdırmaların vəziyyəti təhlil olunub, elmi-nəzəri və praktiki problemlər identifikasiya edilib. Alim molekulyar biologiya və tibb, molekulyar diaqnostika, tibbi genetika, gen müalicəsi kimi problemlərin araşdırılmasının, e-tibdə Big Data və Data Mining texnologiyalarının tətbiqi imkanlarının öyrənilməsinin zəruriliyini vurğuladı.

Tədbirdə həmçinin Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Vurğun Hacıyev "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyində mövcud tibbi informasiya sistemlərinin imkanları haqqında", Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli "Tibbi təhsildə kompüter texnologiyaları", AMEA İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev "Azərbaycan Respublikasında tibbi informatikanın təşəkkülü və perspektivləri", Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının tibb elmləri üzrə elmi şurasının sədri, AMEA-nın müxbir üzvü Nuru Bayramov "Təbabətdə informasiya texnologiyaları və ölkədə həllini gözləyən problemlər" mövzusunda məruzələr etdilər.

Konfrans öz işini AMEA İnformasiya Texnologiyaları İnstitutunda üç paralel seksiya iclasında davam etdirdi. Seksiyalarda üzrə elektron tibbin formalaşmasının konseptual əsasları, texnoloji təminatı, təşkilati-hüquqi, təhlükəsizlik, terminoloji problemləri, sosial-iqtisadi aspektləri və s. mövzularda 75 məruzə təqdim olundu.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*